# Sülhpərvər siyasət, aydın və qətiyyətli mövqe

***Azərbaycan bu gün potensial imkanları hesabına maliyyə cəhətdən ehtiyac duyan dövlətlərə kredit verməklə yardım göstərir, etibarlı tranzit ölkəsi kimi yolnəqliyyat problemlərinin həllində, enerji təhlükəsizliyinin təminində həlledici rol oynayır. Dövlətimizin başçısı Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimindəki çıxışında vurğuladığı kimi, bunun üçün Azərbaycan rəhbərliyi siyasi iradəsi ilə hər zaman xarici ölkələrlə səmərəli münasibət qurmaq və əməkdaşlığı gücləndirmək siyasəti yürüdür.***



Fikrimizin təsdiqi olaraq bir məqamı xatırlatmaq istərdik. Azərbaycan pandemiyanın tüğyan etdiyi dövrdə Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib. Bununla yanaşı, koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərib. Eyni zamanda, bu təhlükəli virusun yayıldığı ilk vaxtlardan etibarən Prezident İlham Əliyev beynəlxalq səviyyədə COVID-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizə təşəbbüsləri ilə çıxış edib. Ötən il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində dövlətimizin başçısı video müraciət vasitəsilə bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayaraq, Azərbaycan tərəfindən, eləcə də Qoşulmama Hərəkatı adından peyvəndlərə universal çıxışın reallaşdırılması ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini bildirib. Həmin il noyabrın 18-də adı çəkilən təşkilatın Baş Assambleyasının 3-cü komitəsində sözügedən qətnamə layihəsi müzakirə olunaraq, qəbul edilib. Dekabr ayında isə BMT Baş Assambleyasının plenar sessiyasında öz təsdiqini tapıb.

Əlbəttə, bütün bunlar Azərbaycanın uzaqgörən uğurlu siyasəti nəticəsində müstəqilliyimizin möhkəmlənməsi və bu şəraitdə əldə edilən iqtisadi güc hesabına reallaşıb. Prezident İlham Əliyev mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimindəki çıxışında bu barədə danışaraq, diqqəti, ilk növbədə, 1993-cü ildə üzləşdiyimiz ağır duruma yönəldib. Dövlətimizin başçısı o zaman müstəqilliyimizin faktiki olaraq böyük təhlükə altında olduğunu, sözdə qeyd edilsə də, de-fakto itirildiyini xatırladıb: "Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müstəqillik, əsl müstəqillik məhz odur ki, sən müstəqil siyasət apara bilirsən, yoxsa yox. Əks təqdirdə bu, sadəcə olaraq, şərti xarakter daşıyır".

*(ardı 3-cü səhifədə)*

# Sülhpərvər siyasət, aydın və qətiyyətli mövqe

*(əvvəli 1-ci səhifədə)*

Bax, belə bir acınacaqlı, müstəqilliyin itirilməsi təhlükəsi yarandığı dövrdə xalqın təkidi ilə ulu öndər yenidən hakimiyyətə gəldi. Bununla da respublikanın əsl müstəqillik həyatı başlandı.

Ölkə rəhbəri çıxışında vurğuladığı kimi, nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmayıb. Ona görə də xalqımız böyük faciələrlə üzləşib. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qalıb. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilməyib. Ancaq bu gün müstəqilliyimizin möhkəmlənməsi, bununla bərabər, iqtisadi gücümüz hesabına İkinci Qarabağ müharibəsində tarixi qələbə qazanılıb, düşmənə diz çökdürülüb və işğalçının xarabalığa çevirdiyi torpaqlarımızda həyatın canlandırılmasına başlanılıb.

Azərbaycanın siyasi cəhətdən tam müstəqil olması üçün ulu öndərimiz və Prezident İlham Əliyev tərəfindən böyük işlər görülüb və bu, hazırda da davam edir. Ona görə də bu gün heç bir ölkə Azərbaycanın iradəsinə təsir edə bilmir və respublikamızla hesablaşmağın, mövqeyini nəzərə almağın zərurətini anlayır. Ölkə rəhbərinin bildirdiyi kimi, çünki Azərbaycan özünə hörmət edən və hər kəsdən bunu tələb edən dövlətdir.

Azərbaycanın dünyada nüfuzunu şərtləndirən amillərdən biri də ölkəmizin iqtisadi müstəqilliyidir. Prezident İlham Əliyev yuxarıda xatırlatdığımız çıxışında vurğuladığı kimi, hazırda iqtisadi cəhətdən müstəqil ölkələrin sayı azdır. Bunu yaxın tarix də aydın göstərir: "Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir...".

Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin yorulmaz müdrik fəaliyyəti nəticəsində əldə edilən siyasi və iqtisadi müstəqillik əsasında Azərbaycan xalqının qədim ənənələri, dəyərləri əsasında qurulan dövlətdə xalqımız rahat nəfəs alır, ərazi bütövlüyümüz qorunur, respublikamız sabitlik, təhlükəsizlik diyarı, adası kimi tanınır. Bunu artıq bütün dünya görür.

Məhz bu siyasi və iqtisadi müstəqillik nəticəsində Azərbaycan hərbi, siyasi-iqtisadi cəhətdən, hətta orta səviyyəli dövlət sayılmayan Ermənistan üzərində tarixi zəfərlə 30 ilə yaxın bir zaman ərzində erməni işğalına məruz qalan Qarabağ və Şərqi Zəngəzuru azad etdi. Şübhəsiz ki, ölkəmizin uğurlu müstəqil xarici siyasət amili bu taleyüklü məsələdə mühüm rol oynadı. Əgər belə olmasaydı, işğalçının xarici havadarları, onların bəzilərinin bizə hədə-qorxu gəlmələri Azərbaycanı bu işdən çəkindirə bilərdi. Ancaq bu, baş vermədi. Çünki Azərbaycan güclü iradə göstərdi, xalqımız birləşdi və bunun da təməlində, əlbəttə ki, siyasi və iqtisadi müstəqillik, həmrəylik, milli qürur, ləyaqət və güc dayanırdı.

Yeri gəlmişkən, bütün bu sadalanan mühüm amillərdən məhrum olan Ermənistan hazırda acınacaqlı şəraitdə yaşayır. İşğalçı ölkə dərin siyasi, sosial-iqtisadi böran burulğanında boğulur. Azərbaycan isə düşmənin xarabalığa çevirdiyi yaşayış sahələrini dirçəldir, nəqliyyat-kommunikasiya layihələrini gerçəkləşdirir.

Azərbaycanın möhkəm təməllər üzərində qurulan müstəqilliyi, iqtisadi gücü, qüdrətli ordusu olmasaydı, heç şübhəsiz ki, İkinci Qarabağ müharibəsində haqq-ədalət zəfər çalmaya bilərdi. Dövlətimizin başçısının Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin açılış mərasimindəki çıxışında bildirdiyi kimi, bu gün güc amili ön plandadır. "Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa, düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də".

Yeri gəlmişkən, yaranan münaqişənin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunan ATƏT-n Minsk Qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışdı və bununla da uzun bir zaman ərzində aparılan danışıqlar nəticəsiz qaldı. Həm işğalçıya, həm də işğala məruz qalan tərəfə eyni münasibət bəslənildi və beynəlxalq qətnamələr kağız üzərində saxlanıldı. Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək, münaqişənin danışıqlar vasitəsilə həllinə çalışdı. Digər mötəbər beynəlxalq təşkilat olan BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirdi, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətləndi. Beləliklə, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal altındakı Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il icra olunmadı.

Cəzasızlıqdan şirniklənən Ermənistan isə daha da irəli gedərək, Azərbaycanı yeni torpaqlar uğrunda yeni müharibə ilə hədələyir, dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl atırdı.

İşğalçı ölkə belə bir növbəti təxribatı isə 2020-ci il sentyabrın 27-də törədərək, Azərbaycana qarşı genişmiqyaslı hərbi hücuma başladı. Buna cavab olaraq, Azərbaycan Ordusu öz ərazimizdə əks-hücum əməliyyatına başladı və işğal olunmuş torpaqlarımızı azad etdi.

İkinci Qarabağ nüharibəsində tamamilə məğlub edilən Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda vurğulanan qətnamələrinin icrasını reallaşdırdı, uzun illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Beləliklə, Qarabağ münaqişəsi artıq keçmişdə qaldı.

Prezident İlham Əliyev "ağıllı kənd" layihəsinin açılış mərasimindəki çıxışında güc amilinin dünyada bundan sonra da hakim olacağını bildirib: "Bunu indi yaxın tarix də göstərir. Ona görə Azərbaycan bundan sonra daha da güclü olmağı qarşıya mühüm vəzifə kimi qoyur və buna nail olur. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılır, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik...".

Azərbaycan hazırda postmünaqişə gündəliyinin formalaşmasında öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, ölkəmiz heç bir qeyri-real tələb də irəli sürmür, yalnız ərazi bütövlüyümüzün tanınmasını, sərhədlərin müəyyənləşdirilməsini, işğalçının daxili işlərimizə qarışmamasını istəyir. Azərbaycanın irəli sürdüyü sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də məhz budur.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti hər zaman sülh təşəbbüslərindən danışarkən, mühüm bir məqama da toxunmağı unutmur. Bu, ermənilərin Azərbaycanda yaşaması ilə bağlı məsələdir. Dövlətimizin başçısı daim bildirir ki, istər Qarabağ bölgəsində, istərsə də digər ərazilərimizdə bununla bağlı heç bir problem yoxdur. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Respublikamızda bütün xalqların hər bir nümayəndəsi rahat yaşayır, bütün hüquqlardan istifadə edir.

Azərbaycanda tolerantlıq mühiti hökm sürür, milli, dini zəmində ayrı-seçkilik yoxdur. Belə şəraitdə, təbii ki, respublikamızda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi də digər xalqlarda olduğu kimi, önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət aparılması təəccüblüdür. Eyni zamanda, bununla bağlı dünya, Avropa təcrübəsi var və Azərbaycan da bu məsələdə beynəlxalq konvensiyalara, Avropa İttifaqı ölkələri çərçivəsində qaydalara və rəsmi sənədlərə əsaslanır.



***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 10 iyun.- S.1;3.